

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

**Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti**

Sayı: 45 (21.706)

3 mart 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Muxtar respublikanın ixrac potensialının artırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir

***Xarici ticarət dövriyyəsinin artması sosial-iqtisadi inkişafın sürətlənməsinə əsaslı təsir göstərən amillərdən biridir. Odur ki, hər bir dövlət imkan daxilində xarici ticarət dövriyyəsinin həcminin davamlı olaraq artırılmasına xüsusi diqqət yetirir. Başqa bir müsbət cəhət xarici ticarətin yerli iqtisadiyyatın ən müxtəlif sahələrinin inkişafına təsir göstərməsi, əsas stimullaşdırıcı amillərdən birinə çevrilməsidir. Bu zaman istehsal edilən məhsulun yüksək keyfiyyəti, rəqabətə davamlı olması da böyük əhəmiyyət kəsb edir.***

Bu gün ölkəmizdə olduğu kimi, muxtar respublikada da həyata keçirilən səmərəli və məqsədyönlü islahatlar xarici iqtisadi əlaqələrin dərinləşməsi prosesini sürətləndirməkdədir. Son illərdə muxtar respublikada sahibkarlıq fəaliyyəti və ticarət üçün yaradılmış münbit şəraitin nəticəsi olaraq xarici ticarət əlaqələrinin coğrafiyası daha da genişlənmişdir. 2017-ci ilin yanvar ayında muxtar respublikada 24 milyon 681 min 300 ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın həcmi son bir il ərzində 1 faiz artaraq 23 milyon 830 min 600 ABŞ dolları, idxalın həcmi 50,1 faiz azalaraq 850 min 700 ABŞ dolları təşkil etmiş, 22 milyon 979 min 900 ABŞ dolları həcmində müsbət saldo yaranmışdır.

Muxtar respublikamızda sahibkarlığa göstərilən böyük diqqət və qayğının nəticəsi olaraq yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması, mövcud istehsal müəssisələrinin yenidən qurulması istiqamətində aparılan uğurlu islahatlar bu sahənin sürətli inkişafına zəmin yaratmışdır. Yaradılmış münbit şərait ticarət əlaqələrinin genişlənməsinə, yüksəkkeyfiyyətli, beynəlxalq standartlara cavab verən yerli istehsal məhsullarının dünya bazarlarına çıxarılmasına imkan vermişdir. Məhz bunun nəticəsidir ki, muxtar respublikada rəqabətqabiliyyətli, alıcı zövqünü oxşayan məhsullar istehsal olunur. Hazırda Naxçıvanda 344 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir.

Məhz bu cür sistemli tədbirlər nəticəsində muxtar respublikada istehsal olunan məhsulların ixrac imkanları artmaqla iqtisadi əlaqələrimiz daha da genişlənmişdir. Muxtar respublikanın iqtisadi inkişafında ilk mərhələ keyfiyyətli məhsul istehsal etməklə əhalinin tələbatını ödəməkdən ibarət idisə, bu gün həmin məhsulların rəqabət qabiliyyətini artırmaqla ixracına nail olmaq qarşıda duran əsas vəzifələrdən biridir. Artıq məhsullarımız daxili bazarda öz yerini getdikcə möhkəmləndirir. Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə, Rusiya, İraq, Gürcüstan və digər ölkələrə muxtar respublikadan dəri, mebel, daş və beton məhsulları, sement, gips və gips lövhələr, mineral sular, vafli məmulatları və bir çox məhsul ixrac edilir.

Muxtar respublikada istehsal olunan ixracyönümlü ərzaq məhsullarının keyfiyyəti yüksəkdir. Müasir dünyada təbii məhsullara verilən üstünlük belə məhsulların xarici bazarlara çıxarılma imkanlarını artırır. Bu məqsədlə muxtar respublikada ilk dəfə olaraq məhsul ixracına dəstək məqsədilə "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti təsis edilmişdir. Müəssisənin əsas vəzifəsi məhsulların respublika ərazisində satışının genişləndirilməsi, qablaşdırma, dizayn, markalanma və digər göstəricilərin yaxşılaşdırılması, xarici ölkələrə ixracın təşkil edilməsindən ibarətdir.

Bu gün ixrac potensialının artırılmasında, investisiya imkanlarının genişləndirilməsində, potensial tərəfdaşların tapılmasında və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsində sahibkarlara dəstək verilir. Bu istiqamətdə həm ölkənin daxilində, həm də xaricdə mühüm iqtisadi tədbirlər, o cümlədən biznes forumlar, sərgilər, seminar və konfranslar keçirilir. Son illər keçirilmiş 200-dən çox yerli və beynəlxalq əhəmiyyətli tədbirdə muxtar respublikadan 1000-dən çox nümayəndə iştirak etmiş, 500-dən çox çeşiddə məhsul Rusiya, Almaniya, Birləşmiş Ərəb Əmirlikləri, Fransa, Türkiyə, Belarus, Avstriya, Polşa, İran və bir çox ölkələrdə nümayiş olunmuşdur.

Bu tədbirlərin keçirilməsi istər ölkənin biznes mühitinin və iqtisadi potensialının təbliği, istərsə də yerli sahibkarların işgüzar əlaqələrinin inkişafı baxımından əhəmiyyətlidir.



Xüsusilə xarici ölkələrdə təşkil edilən tədbirlər, eyni zamanda ölkə iqtisadiyyatının prioritet inkişaf istiqamətləri üzrə investisiya qoyuluşlarının həcminin artımında öz müsbət nəticələrini verməkdədir.

Bu gün qarşıda duran mühüm vəzifələrdən biri ixracın həm məhsulların çeşidi, həm də coğrafiyası baxımından şaxələndirilməsidir. Bu məqsədlə "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqi istiqamətində işlər aparılır. Artıq ölkə ixracatçıları xaricdə keçirilən sərgilərdə "Made in Azerbaijan" brendi altında vahid ölkə stendi ilə təmsil olunurlar. Bu çərçivədə cari ildə Almaniyaya təşkil olunmuş ilk ixrac missiyasında muxtar respublikadan da nümayəndə heyəti iştirak etmiş və Berlin şəhərində keçirilmiş "Yaşıl Həftə" beynəlxalq qida sərgisində muxtar respublikada fəaliyyət göstərən 9 şirkətin 18 növdə və 54 çeşiddə məhsulunun nümayişi təmin olunmuşdur.

Muxtar respublika sahibkarları bu gün nəinki qonşu ölkələr, həmçinin dünyanın bir çox ölkəsi ilə yaxından əməkdaşlıq edirlər. Babək "Sirab" Açıq Səhmdar Cəmiyyəti Dubayda keçirilən ən nüfuzlu sərgilərdən biri olan "Gulfood 2017" sərgisində Naxçıvanın brend məhsullarından olan "Sirab" mineral suyunu nümayiş etdirmişdir.

Muxtar respublika əhalisinin ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər sırasında əsas ərzaq məhsullarının keyfiyyətinə nəzarət edilməsi mühüm yer tutur. Bu məqsədlə qida məhsullarının ekspertizası üzrə beynəlxalq akkreditasiyadan keçmiş və İSO 17025-2005 tələblərinə cavab verən laboratoriya fəaliyyət göstərir. İxrac əməliyyatlarında tələb olunan bir sıra sertifikatlar da məhz buradan təmin olunur. Verilən sertifikatlar ərzaq məhsullarının maneəsiz şəkildə xarici bazarlara çıxarılmasına şərait yaradır.

Aparılan iqtisadi islahatların ən mühüm istiqamətlərindən biri də investisiyaların təşviqi ilə bağlı həyata keçirilən tədbirlərdir. İnvestisiya təşviqi sənədi ölkədə investisiya və biznes mühitinin yaxşılaşdırılmasına, eləcə də stimullaşdırılmasına nail olmaq məqsədi daşıyır. Belə ki, artıq muxtar respublikada investisiya təşviqi sənədinin tətbiqinə başlanmışdır.

Bu istiqamətdə muxtar respublika əhalisinin süd və süd məhsullarına, o cümlədən xama və qaymaq məhsullarına olan tələbatının tam ödənilməsi, eləcə də idxalın əvəzlənməsi və tələbatdan artıq istehsal olunan məhsulların ixracının stimullaşdırılması məqsədilə 2016-cı ildə xama və qaymaq istehsalı sahəsinə investisiyanın təşviqi sənədi və təsdiqedici sənəd verilmişdir.

Muxtar respublika ixracatçılarının qarşılaşdığı çətinliklərdən biri də məhz yük daşımaları və logistik xidmətlərlə bağlıdır. Lakin sevindirici haldır ki, ötən il bu sahədə də yaxşı nəticələr əldə edilmişdir. Belə ki, Naxçıvan-Bəndərabbas dəmir yolu marşrutu ilə yerli məhsulların körfəz ölkələrinə, eləcə də beynəlxalq dəniz limanlarına sərfəli tariflərlə çıxışına şərait yaradılmışdır. Dəmir yolu vasitəsilə muxtar respublikadan artıq Orta Asiya ölkələrinə də çıxış təmin olunmuşdur ki, bu da ixracatçılara dövlətimiz tərəfindən verilən əvəzsiz töhfədir.

Sahibkarların mütəmadi olaraq maarifləndirilməsi, onlara texniki və metodik dəstək göstərilməsi istiqamətində muxtar respublikanın İqtisadiyyat Nazirliyi tərəfindən mütəmadi seminarlar və treninqlər təşkil olunur. Məhsulların virtual məkanda təbliği, satışı şəbəkəsinin genişləndirilməsi, yeni məhsulların yaradılması, inkişaf etdirilməsi və digər bir çox sahədə lazımi dəstək göstərilir. Yerli malların ənənəvi və yeni bazarlara çıxarılması imkanlarını artırmaq və beynəlxalq bazarlara inteqrasiya prosesini sürətləndirmək məqsədilə informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə olunur.

Təsadüfi deyil ki, beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyasında məhsul ixracına diqqət yetirilməsi nazirlik qarşısında bir daha həllivacib vəzifə kimi qoyulmuşdur.

İxracın artırılmasına nail olmaq üçün qarşıda duran əsas istiqamət isə rəqabətqabiliyyətli və yüksəkkeyfiyyətli məhsulların istehsalını təşviq etmək, müəssisələrin mövcud potensialını inkişaf etdirmək, məhsulların daha geniş məkanda təbliğini təmin etmək və real sektorda dayanıqlı ixraca nail olmaqdan ibarətdir. Qarşıdakı günlərdə bu istiqamətlərdə həyata keçirilən tədbirlər daha da gücləndiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Elmi ekspedisiyalara başlanılacaq

AMEA Naxçıvan Bölməsində aprel ayından başlanılacaq ekspedisiyaların məqsədi Naxçıvan Muxtar Respublikasının qədim yaşayış yerlərinin tarixinin öyrənilməsi, arxeoloji qazıntılar zamanı aşkar ediləcək maddi-mədəniyyət nümunələrinin elmi cəhətdən təhlil olunması, qədim folklor nümunələrinin toplanması, bitki və heyvanlar aləminə aid materialların, faydalı bitkilərin müəyyənləşdirilməsindən ibarətdir. Tədqiqat işlərinin nəticəsi olaraq ümumiləşdirici əsərlər, monoqrafiyalar və kitablar hazırlanıb çap ediləcək.

Sentyabrın sonunadək nəzərdə tutulan tədqiqatlar Tarix, Etnoqrafiya və Arxeologiya, İncəsənət, Dil və Ədəbiyyat, Bioresurslar institutlarının əməkdaşları tərəfindən həyata keçiriləcək.

Qeyd edək ki, bölmə əməkdaşları tərəfindən ötən illərdə toplanılan materiallar əsasında 2 cilddə "Naxçıvan Ensiklopediyası", Azərbaycan və ingilis dillərində "Naxçıvan Abidələri Ensiklopediyası", 3 cilddə "Naxçıvan tarixi", "Naxçıvanın tarixi atlası", 3 cilddə "Naxçıvan folkloru", 2 cilddə "Naxçıvan Muxtar Respublikasının Qırmızı Kitabı" və digər kitablar nəşr olunub.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Müasir turizm infrastrukturu və sabitlik muxtar respublikaya gələn turistlərin sayını artırıb

***Dünya iqtisadiyyatında baş verən dəyişikliklər və ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsi üzrə həyata keçirilən qəti tədbirlər çərçivəsində turizmin inkişafına ayrılan diqqət də öz bəhrəsini verməyə başlayıb. Bunu muxtar respublikamıza gələn turistlərin sayının artımında da görmək mümkündür.***

Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən cari ilin ilk ayında muxtar respublikaya 16 min 265 nəfər turist gəlib. Bu da 2016-cı ilin müvafiq dövründəki göstəricidən 6,8 faiz və ya 1034 nəfər çoxdur.

Hələ qış mövsümü bitməsə də, turistlərin sayındakı bu mühüm artımın arxasında bir sıra amillər dayanır. Belə ki, ötən ilin yekunlarına baxdıqda il ərzində Naxçıvan Muxtar Respublikasına səyahət etmiş turistlərin sayının 403 min nəfər olduğunu görməkdəyik ki, bu da 2015-ci ilin yekunları (390 min nəfər) ilə müqayisədə 3,3 faiz çox deməkdir. Bu rəqəmi 2014-cü illə (378 min nəfər) müqayisə etdikdə isə 6,6 faiz artım olduğunu müşahidə edirik. Göründüyü kimi, muxtar respublikamıza gələn turist sayının artım dinamikası sabit saxlanılıb.

Turistlərin Naxçıvana rahat səyahətləri üçün lazımi şəraitin yaradılması, təklif olunan xidmətlərin keyfiyyətinin və qiymətinin turist tələbini ödəməsi, milli və peşəkar qonaqpərvərlikdə formalaşmış müsbət imic səyahət zamanı Naxçıvanı seçən turistlərin sayının artımına müsbət təsir edib. Ötən il mart ayının 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilmiş müşavirədə isə muxtar respublikanın tarixi, mədəniyyəti, coğrafiyası, müasir inkişafı



və turizm potensialı haqqında məlumatların yayılması və təbliği ilə bağlı mühüm vəzifələr qarşıya qoyulub. Görülmüş tədbirlər nəticəsində Naxçıvanın zəngin turizm ehtiyatlarının, infrastruktur imkanlarının tanıdılması işində xeyli irəliləyişlər əldə olunub.

Bütün bunlar nəticəsiz qalmayıb və artıq cari ildə də Naxçıvana səyahət edəcək turistlərin sayının çox olacağını indidən proqnozlaşdırmaq mümkündür. Muxtar respublikada həm yay, həm də qış turizmi üçün geniş imkanlar vardır. 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı olacaq Naxçıvanın beynəlxalq aləmdə daha geniş tanıdılması üçün də yeni imkanlar yaranacaq. Mühüm əhəmiyyəti olan bu hadisəyə hazırlıq tədbirlərinə start verilməsi əcnəbi turistlərin bu qədim mədəniyyət mərkəzinə olan marağını daha da artıracaqdır.

**✍ Əli CABBAROV**

***Gözəlliyin onundan doqquzunun don olduğu kimi, yaşayış məskənlərinin də gözəlliyi tikililərin müasirliyi, küçə və yolların abadlığı, ətraf mühitin təmizliyi ilə ölçülür. Ortaq nöqtə hər ikisinin təminatında insan zövqünün və əməyinin olmasıdır. Çünki istənilən gözəlliyin arxasında sevgi və zəhmət dayanır. Bu meyarlardan birinin olmaması natamamlıq yaradar ki, bu da heç kimə lazım deyil. Muxtar respublikamızda indiyədək görülmüş işlərin mahiyyətində də məhz bu tamlıq durur. Təbiət və insan yaradıcılığının birgə ortaya qoyduğu gözəlliklərə isə muxtar diyarın istənilən bölgəsinə səfər etməklə şahid olmaq mümkündür. Biz isə budəfəki yolumuzu muxtar respublikada Araz çayına ən yaxın şəhər olan Culfadan saldıq.***

# Culfa:
## tarix və müasirliyin qovuşduğu məkan



Culfanın tarixi çox qədimdir. Vaxtilə, daha doğrusu, 1727-ci ildə Culfa rayonunun ərazisi bir neçə nahiyədən ibarət olub. Culfa isə kənd kimi Dərəşam nahiyəsinə daxil edilib. 1926-cı ildə dairə mərkəzinə çevrilib. Buraya rayon statusu 1930-cu ildə verilib. Rayon mərkəzi 1949-cu ilə kimi Əbrəqunus olub. Həmin il Culfa rayonu yaradılıb. 1963-cü ildə indiki Ordubad rayonunun ərazisi də Culfa rayonuna birləşdirilib. 1965-ci ildə rayonlar ayrılıb. Qədim Culfa indi yerləşdiyi ərazidən 4-5 kilometr aralı məsafədə olan Gülüstan kəndi ərazisində Araz çayı boyunca uzanan karvan yolu üzərində qərar tutub. Bu bölgə haqqında bir çox alimlər, səyyahlar, tacirlər maraqlı fikirlər söyləyiblər. Məsələn, ingilis taciri Nyuberiyə görə, o vaxt şəhərdə evlərin sayı 3 minə, əhalinin sayı isə 20 min nəfərə çatırdı. Culfa şəhərinin adına Səfəvilər dövlətinin başlıca şəhərləri arasında rast gəlmək olur. Tarixçi Şərafəddin Əli Yəzdinin "Zəfərnamə" əsərində qeyd olunur ki, Culfa Naxçıvan vilayətində Araz çayının dağın ətəyindən keçdiyi ərazidə yerləşir. Burada məşhur Ziya-ül Mülk körpüsü salınıb. Şəhərin adının etimologiyası haqqında da maraqlı məlumatlar var və mənbələrə görə, "Culfa" sözü müxtəlif variantlarda işlənib. Bəziləri bu sözün "toxucu" mənasını verdiyini söyləyirlər. Tarixi mənbələr bu şəhərdə vaxtilə toxuculuğun geniş şəkildə inkişaf etdiyindən xəbər verir. Culfa Şərq və Qərb arasında mühüm ticarət əlaqələrinin keçid məntəqəsi olub, burada müxtəlif istehsal sahələri fəaliyyət göstərib. Qədim Culfanın mühüm ticarət əlaqələrində rolunun nəticəsidir ki, XII-XIII əsrlərə aid edilən Culfa karvansarayı nəinki Naxçıvan Muxtar Respublikası ərazisində, ümumilikdə, Azərbaycan Respublikasının ərazisində elm aləminə məlum olan ən böyük karvansaraydır. Ümumi uzunluğu 37 metr olan Culfa karvansarayı şəhər karvansarayları qrupuna aid olub, orta əsrlərdə Culfa şəhərinin mühüm ticarət əhəmiyyətini bir daha ortaya qoyur. Sovetlər Birliyi dövründə Culfa strateji dəmiryol nəqliyyatının qovuşduğu məkan kimi öz əhəmiyyətini qoruyub saxlayıb. Elə bu əhəmiyyətindən dolayı Culfanı həm dəmiryolçular, həm də hərbçilər şəhəri kimi tanıyırdılar. Buraya SSRİ-nin ən ucqar nöqtələrindən gəlib-gedənlər olurdu. Ancaq Culfanın əsl şəhər kimi formalaşması müstəqilliyimizin bərpasından sonrakı dövrə təsadüf edir. Son illər ərzində Culfa şəhəri də daxil olmaqla rayonun ən ucqar kənd yaşayış məntəqələri yeni quruculuq mərhələsinə qədəm qoyub. Rayonda böyük quruculuq işləri aparılıb, yeni yollar salınıb, tarixi tikililər bərpa olunub, Culfa şəhəri müasir görkəmə qovuşub. Hər ötən il rayonun tarixinə yeniliklərlə daxil olub. 2016-cı ildə Culfa rayonunda müxtəlif sahələrdə görülən işlər həm rayonun, həm də muxtar respublikanın müasir tarixində yaddaqalan hadisələrdəndir.

Naxçıvanın qədim tarixində mühüm rola malik Əlincəqala Culfa rayonunun ərazisində yerləşir. Azərbaycan xalqının mübarizlik əzmini nümayiş etdirən qala birinci-altıncı əsrlərdən başlayaraq müdafiə istehkamı və yaşayış yeri kimi istifadə olunub, 14 il Əmir Teymurun qoşunlarının hücumlarına müqavimət göstərib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 11 fevral tarixli Sərəncamı ilə bərpa olunan "Əlincəqala" tarixi abidəsi ötən il iyunun 17-də burada yaradılmış muzeylə birgə istifadəyə verilib. Yerləşdiyi coğrafi mövqeyinə görə bərpası hədsiz zəhmət, bəzi hallarda müasir tikinti layihələrinin həyata keçirilməsindən daha böyük bacarıq və maliyyə tələb edən bu qalanın yerli və əcnəbi qonaqların istifadəsinə verilməsi qalanın özü qədər əsl cəsarət nümunəsidir desək, yanılmarıq. İndi bura yolu düşən hər kəs qalanın möhtəşəmliyi ilə görülmüş işlərin möhtəşəmliyini eyni məkanda görmək və hiss etmək imkanına malikdir. Qalanın zirvəsində dalğalanan üçrəngli bayrağımız isə bu möhtəşəmlik duyğusuna həm də qürur hissi verir.

Rayonda ötən il bərpa olunaraq istifadəyə verilən tarixi abidələrdən biri də Gülüstan türbəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 7 oktyabr tarixli Sərəncamına əsasən bərpa edilmiş və 2016-cı il iyunun 30-da istifadəyə verilmiş dünya əhəmiyyətli Gülüstan türbəsi XVI yüzilliyə aid "Çaldıran səfəri ruznaməsi"ndə, XVII əsr türk səyyahı Övliya Çələbinin "Səyahətnaməsi"ndə, 1815-ci ildə Culfada olmuş Mirzə Saleh Şirazinin "Səfərnamə"sində xatırlanır. Azərbaycanın qüllavari türbələri sırasına daxil olan və özünəməxsus xüsusiyyətləri ilə seçilən türbənin yerləşdiyi ərazinin tarixi və mədəni əhəmiyyəti nəzərə alınaraq burada "Gülüstan" Tarix-Mədəniyyət Qoruğu yaradılıb. Qeyd edək ki, bərpa işləri zamanı hər iki tarixi abidəyə gedən avtomobil yolları əsaslı şəkildə yenidən qurulub, ziyarətə gələnlərin rahatlığı təmin olunub.

Qeyd edək ki, muxtar respublikada görülən tikinti-quruculuq işləri içərisində öz spesifikliyi ilə seçilən kənd və xidmət mərkəzlərinin tikintisi 2016-cı ildə də diqqət mərkəzində saxlanılıb. Ötən il rayonun Saltaq kəndində kompleks quruculuq işləri həyata keçirilərək yeni sosial obyektlər istifadəyə verilib. Saltaq kənd sakini Arif Nuriyev bizimlə söhbətində bildirdi ki, ötən il kəndimizdə böyük quruculuq işləri aparıldı. Dördmərtəbəli məktəb binası, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası öz qapılarını sakinlərin üzünə açdı. Artıq uşaqlarımız müasir məktəb binasında təhsil alırlar. İkimərtəbəli kənd mərkəzində kənddə fəaliyyət göstərən dövlət qurumları üçün lazımi şərait yaradılıb. Kənd sakinləri bir mərkəzə üz tuturlar ki, bu da problemlərin vaxt itirmədən tez bir zamanda həllinə imkan verir.

Kəndin digər sakini Mahir Əsgərov isə bizimlə söhbətində daha çox kəndin yenidən qurulmuş yollarına diqqət çəkdi: "Əvvəllər kəndimizin yolları çox bərbad vəziyyətdə idi. Yayda toz-torpaq, payız və yaz aylarında isə palçıqdan hərəkət etmək mümkün deyildi. Hər zaman fikirləşirdik ki, rayonumuzun kəndlərində aparılan quruculuq işlərindən bizə də pay düşər. Keçən il kənddə böyük tikinti işləri aparıldı, yeni binalar istifadəyə verildi, kəndimizin yolları da abadlaşdırıldı. Ötən il yeni obyektlərlə yanaşı, kəndimizdə su dəyirmanı da istifadəyə verildi. Su dəyirmanında üyüdülən buğdanın çörəyi dadlı olur. Keçmiş zamanlarda ata-babalarımız bu üsulla dən üyüdüblər, ona görə də sağlam qidalanıblar. İndi kənddə belə bir dəyirmanın fəaliyyət göstərməsi hər birimizin sağlamlığına xidmət edir. Kəndimizin sakinləri ilə bərabər, ətraf kəndlərdən də taxıl üyütmək üçün dəyirmana gəlirlər. Hər birimiz görülən bu işlərə görə dövlətimizə minnətdarlığımızı bildiririk".

2016-cı il Gülüstan kəndi üçün də düşərli il olub. Tarixi adını bu gün də yaşadan Gülüstan kəndi quruculuq tədbirlərindən payını alaraq müasirliyə qovuşub. Xatirimdədir, ötən il yeni sosial obyektlər istifadəyə verildikdən sonra mən də kəndə ezam olunmuş, burada görülən işlərlə bağlı bir yazı hazırlamışdım. Həmin vaxt da, elə bu dəfə də kənd sakinləri görülən işlərdən ağızdolusu danışdılar. Kənd sakini Elbrus Zeynalov dedi ki, Gülüstan kəndi rayon mərkəzinə yaxın kəndlərdən olsa da, sovet dövründə tam unudulmuş, diqqətdən kənarda qalmış yaşayış məntəqələrindən biri olub. Kəndin yolları elə vəziyyətdə olurdu ki, bəzən yaxınlıqdakı rayon mərkəzinə getmək üçün də minbir əziyyət çəkirdik. Keçən il kəndimizdə quruculuq işləri aparıldı, yeni məktəb binası, kənd və xidmət mərkəzləri istifadəyə verildi. Bəzən adi bir ərzaq və yaxud sənaye məhsulu üçün rayon mərkəzinə gedirdiksə, indi bunu kəndimizdə yaradılmış xidmət mərkəzindən əldə edirik. Bir sözlə, çətinliklərimiz arxada qalıb. Söhbətə digər kənd sakini Rasim Ələkbərov da qoşulur. Onun dediklərindən: "Bu kənddə ötən ilədək qaz, elektrik və rabitə təminatı istisna olmaqla, digər sahələrdə əziyyət çəkmişik. İndi rahat yolumuz var, gediş-gəlişimiz asanlaşıb. Uşaqlarımız yeni, hərtərəfli şəraitlə təmin olunmuş məktəbdə təhsil alırlar. Kəndimizə yeni içməli su xətti çəkilib, artıq hər kəs ekoloji cəhətdən təmiz su ilə təmin olunub. Rabitə xətləri yenilənib, kənddə bütün evlər telefonlaşdırılıb. Yəni yaxşı yaşamaq üçün bütün zəruri tədbirlər həyata keçirilib. Bizə göstərilən bu qayğıya görə dövlətimizə minnətdarlıq edirəm".

Rayonun orta əsrlərdə Şərqin əsas elm və mədəniyyət mərkəzi kimi tanınan Xanəgah kəndində də ötən il quruculuq tədbirləri aparılıb.

2016-cı ildə Culfa şəhərində görülmüş işlər də diqqət çəkir. Şəhərdəki M.Əsgərov küçəsində yerləşən 17 nömrəli, beşmərtəbəli, 50 mənzilli və 15 nömrəli, dördmərtəbəli, 56 mənzilli yaşayış binaları əsaslı təmir işlərindən sonra sakinlərin istifadəsinə verilib. 2016-cı il dekabrın 2-də isə rayon mərkəzində daha bir dövlət qurumu üçün inzibati binanın açılışı olub. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə Dövlət Təhlükəsizliyi Xidmətinin Culfa Rayon Şöbəsinin inzibati binası istifadəyə verilib. Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan binada burada xidmət edən əməkdaşlar üçün lazımi iş şəraiti yaradılıb, iş otaqları yeni avadanlıqlar və texniki vasitələrlə təmin olunub. Eyni zamanda binanın ikinci mərtəbəsində 4 xidməti yaşayış mənzili istifadəyə verilib, ailələr üçün hərtərəfli məişət şəraiti yaradılıb. Hazırda isə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geoloji Axtarış və Kəşfiyyat İdarəsinin Culfa rayonunda inzibati və yardımçı binalarının tikintisi aparılır.

Culfa şəhər sakini Vahid Həsənovla həmsöhbət olduq. Şəhərdə görülən işlərlə bağlı fikirlərini öyrəndik. O dedi: "Culfa şəhəri 20-25 il bundan əvvəl elə bir görkəmdə idi ki, bir əcnəbiyə göstərsəydin, buranın şəhər olduğuna inanmazdı. Sovet dövründən qalmış köhnə binalar, dağılmış yol və səkilər, qırılmış ağaclar və sair Culfanı çox nimdaş görkəmdə göstərirdi. İndi isə şəhərin gözəlliyindən, təmizliyindən nə qədər danışsaq, azdır".

Culfa şəhər sakini Anar Hüseynov isə şəhərin gözəlliyindən, təmizliyindən danışarkən diqqəti daha çox yeni təmir olunmuş yaşayış binalarına yönəltdi. Həmsöhbətim bildirdi ki, buradakı yaşayış binaları sovet dövründə tikilib. Uzun illərdir ki, istismar olunduğundan artıq köhnəlmək üzrə idi. Ancaq sağ olsunlar, son illərdə buradakı binaların böyük əksəriyyəti əsaslı şəkildə təmir olunub. İndi şəhərdəki yaşayış binalarının çoxunun dam örtüyü, qapı və pəncərələri dəyişdirilib, daxilində təmir işləri aparılıb, kommunikasiya xətləri yenilənib. Əvvəlcə şəhərin görməli yeri dedikdə, bir-iki ünvanı nəzərdə tuturduqsa, indi Culfanın hər tərəfi abad və gözəldir. İnanırıq ki, görülən bu işlər növbəti illərdə də davam etdiriləcək.

Rayonda olarkən Culfa Rayon İcra Hakimiyyətindən 2016-cı ildə müxtəlif sahələr üzrə görülmüş işlərin nəticələrini özündə əks etdirən statistik rəqəmləri də əldə etdik. Öyrəndik ki, ötən il rayonda 7919,3 min manatlıq, yaxud 2015-ci illə müqayisədə 1 faiz çox sənaye məhsulu istehsal olunub. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi isə 7,1 faiz artaraq 35821,2 min manat təşkil edib. Əkin sahələri üzrə ötən il 4974 hektar dənli və dənli-paxlalı bitkilərin əkini sahəsindən 13822 ton, 4050 hektar buğda əkini sahəsindən 11058 ton, 130 hektar bostan əkini sahəsindən 1827,8 ton, barverən meyvə bağlarından 3241,1 ton, üzüm bağlarından 5897 ton məhsul yığılıb. Ümumilikdə, 2016-cı ildə Culfa rayonunda kənd təsərrüfatı sektorunda 59255,4 min manatlıq məhsul istehsal edilib ki, bu da 2015-ci illə müqayisədə 7,1 faiz çoxdur.

Təbii ki, əldə edilmiş nəticələr əhalinin həyat səviyyəsinin də yaxşılaşmasına səbəb olub, zəhmətkeş insanların qurub-yaratmaq əzmini yüksəldib. Bu istiqamətdə görülən işlərdən biri də rayon sakinlərinin məşğulluğunun təmin olunmasıdır. Ötən il Culfa rayonunda 333 yeni iş yeri açılıb ki, bunun da 324-nü daimi iş yerləri təşkil edir.

Culfa rayonunda 2016-cı ildə əldə edilmiş uğurlu nəticələri digər sahələr üzrə də sadalamaq mümkündür. Hər halda əldə etdiyimiz məlumatlar bunu deməyimizə əsas verir. O ki qaldı Naxçıvanın bu qədim bölgəsi haqqında gəldiyimiz ümumi qənaətə – bax bu haqda bir neçə kəlmə deməyə dəyər: Culfa rayonu qədim keçmişə, tarixi zənginliyə malik rayondur. Bu rayonun köksündə Naxçıvanın tarixi və mədəni zənginliyini, dövlətçilik ənənələrini özündə yaşadan abidələrimiz var. Ancaq bu abidələr əsrlər keçsə də, yalnız ötən iyirmi ildən bir az artıq dövrdə öz layiqli qiymətini və bundan sonra yaşamaq haqqını alıb. Qədim Culfa şəhəri yüz illər boyu strateji əhəmiyyət kəsb etsə də, şəhər kimi indi əsl simasına qovuşub. Rayonun kəndləri qədim tariximizin bir parçası, dədə-babalarımızın yaşadığı, ömür sürdüyü bir yurd yeri kimi yalnız indi əsl abadlığına qovuşub, insanların gələcəyə olan inamı artıb.

***Həyata keçirilən tədbirlərin nəticəsidir ki, 22 kənd yaşayış məntəqəsi olan Culfa rayonunda Dizə (cari ildə burada quruculuq işlərinin aparılması nəzərdə tutulub), Camaldın və Qazançı kəndləri istisna olmaqla, bütün kəndlər abadlaşdırılıb. Görünən odur ki, Haçadağ kimi Naxçıvanın simvolunu, Əlincəqala kimi mübarizlik tariximizi özündə yaşadan Culfa rayonu bundan sonra da muxtar respublikamıza gələnlərin ən çox üz tutduğu bölgələrimizdən olacaq. Görülən işlər hər kəsə tarix və müasirliyi bu rayonun simasında öyrənməyə imkan verəcək.***

Səbuhi HƏSƏNOV

***Hər bir insanın yaşaya biləcəyi ən gözəl duyğu valideyn olmaqdır. Sözsüz ki, hər bir valideyn övladı üçün hər şeyin ən gözəlini və yaxşısını istəyər. Uşağın sağlam inkişafı üçün ana və ata buna hazır olmalı, eləcə də uşaq tərbiyəsi üçün hər bir məlumatı bilməlidir. İlk əvvəl tərəflər ailə münasibətlərini dəyərləndirməli, ata-ana missiyasına hazır olub-olmadıqlarını müəyyən etməlidirlər. Təbii ki, körpənin dünyaya gəlməsi ilə birlikdə ailənin həyat tərzi dəyişilir ki, bu dəyişikliyin sağlam olması əhəmiyyətlidir. Unutmayaq ki, övladlarımızın şəxsiyyətlərini biz formalaşdırırıq. Necə deyərlər, uşağın şəxsiyyətinin təməlləri lap kiçik yaşlarından atılır. Bu, reallıqdır ki, uşaqlıq illərində yaşananlar yetişkin həyatda da öz təsirini göstərir.***

# Ailədən dünyaya açılan pəncərə

Böyüklərin ən şirin, unuda bilmədikləri xatirələri hər zaman uşaqlıq illərinə təsadüf edir. Bu mənada, uşaqlıq illəri gələcək illərə hər an öz təsirini göstərməkdədir – istər mənfi, istərsə də müsbət mənada. Çünki uşaq dünyaya gəldiyi ilk aylardan etibarən öz çevrəsini tanımağa çalışır, inkişaf dövründə verdiyi reaksiyalar, qazandığı bacarıqlar, davranış formaları fərqli bir tərzdə özünü göstərir.

Ailə uşağın böyüdüyü, təlim-tərbiyə aldığı ən vacib qurumdur. Uşağın şəxsiyyətini böyük ölçüdə ailə və çevrə formalaşdırır. Uşaq yaşda yaşadıqlarımızı çox yaxşı xatırlayır və unutmuruq. Bu xatirələr eyni zamanda böyük məna kəsb edir bizim üçün. Uşağın ailəsində ana-ata arasındakı soyuq münasibətlər, ailədəki yanlış anlaşılma, boşanma halları və digər bu kimi hallar onun gələcək həyatında iz qoyur. Belə olduqda onun gələcək həyatında hədəfini düzgün müəyyənləşdirməsi, planlı işləməsi, problemləri həll etməkdə çətinlik çəkdiyi müşahidə edilir.

Valideynlərin uşaqla hər şeyi bölüşməsi, onunla zaman keçirməsi çox vacibdir. Amma onu da qeyd etmək lazımdır ki, necə deyərlər, keyfiyyətli və aktiv zaman keçirmək daha məqsədəuyğundur. Bu baxımdan oyunların uşaq psixologiyasında xüsusi yeri və rolu vardır. Uşaqlar üçün oyun, sadəcə, oyun deyil, onların ən ciddi məşğuliyyətidir. Oyunlar uşaqların öncə özlərini kəşf etmələri üçün təbii bir vasitədir. Digər tərəfdən, oyun uşağın həyatında böyük, önəmli rol oynamaqdadır. Oyunların təlim-tərbiyədəki dəyəri çox əvvəldən hər kəsə məlumdur. Valideynlərin uşaqlar ilə oyun oynamaları, birlikdə vaxtlarını dəyərləndirmələri, sosial yöndən əlaqələri təqib etmələri, ortaq fikirdə olmaları, ümumilikdə, ailə fərdlərinin arasındakı əlaqə dəyəri böyük önəm daşımaqdadır. Valideynlərin uşaqlarla oyun oynamaları onlar arasındakı əlaqəni gücləndirəcək və uşaqlarını daha yaxından tanımalarına imkan yaradacaqdır.

Oyun mövzusundan söz açmışkən, ailədə ən çox buraxılan səhvlərdən biri də məktəbyaşlı uşaqların oyunla əlaqələrinin bitdiyi düşüncəsidir. Oyun uşağın inkişafı üçün o qədər vacibdir ki, onun ruh sağlığı sevgi və oyun ilə xarakterizə olunur. Düzdür, məktəbyaşlı uşağın oyun üçün ayrılan vaxtı azalsa da, bu, o demək deyildir ki, o, artıq oyun oynamamalıdır. Oyun oynamağın da müəyyən vaxtları olduğunu uyğun bir dillə uşağa bildirmək lazımdır. Valideynlərin uşaqlarına vermək istədikləri ismarıcı oyun vaxtı çatdırmaları daha asandır.

Oyunların ən vacib tərkib hissəsini təşkil edən oyuncaqlar uşağın duyğu orqanını, təbii bacarıqlarını tənzimləyən, xəyal gücünü zənginləşdirən, mənəvi və sosial inkişafını sürətləndirən oyun materiallarıdır. Oyuncaqlar da uşağın psixoloji yöndən daha güclü formalaşmasında köməkçi vasitələr hesab edilir. Oyun və oyuncaqları seçərkən uşağın həm yaşı, həm də inkişaf səviyyəsi dəyərləndirilməli və ona uyğun olmalıdır. Bir də uşağa oyuncaq seçərkən və alarkən onun da fikrinin öyrənilməsi lazımdır, çünki həmin oyuncaqla o oynayacaq. Çalışmaq lazımdır ki, alınan oyuncaqlar uşağın inkişaf səviyyəsinə uyğun və öyrədici xarakterli olsun.

Valideynlər uşaqları ilə danışarkən istifadə etdikləri dil, ya da müraciət forması çox vacib və əhəmiyyətlidir. Belə ki, duyğu və düşüncələrimizi sözlərlə ifadə edərkən daha diqqətli, daha mehriban və yumşaq olmalıyıq. İnsanın duyğularını ifadə edərkən "mən", "sən" sözlərinin böyük önəmi olduğunu görmüş olarıq. "Mən" dili, fərdin qarşılaşdığı davranış və vəziyyət qarşısında fərdi reaksiyasını, öz duyğu və düşüncələrini izah edən ifadə şəklidir. Özümüzü "mən"li cümlələrlə ifadə etdiyimiz zaman qarşımızdakı insanı incitmədən fikrimizi çatdırmış oluruq. "Sən" dili ilə danışmaq isə qarşısındakını günahkar kimi qələmə vermiş olur, bunun da nəticəsində həmin insan təbii olaraq özünümüdafiəyə ehtiyac duyur. Məsələn, "sən günahkarsan" əvəzinə, "sənin bu davranışın məni incidir", – deyə ifadə etmək olar. Və yaxud "yalan danışma" əvəzinə, "doğrunu söylə" demək daha məqsədəuyğundur. Birinci halda sanki qarşındakını günahlandırırsan, ikinci fikirdə isə yol göstərmiş olursan.

Uşaqlar böyüklərini dinləməkdə əsla yaxşı deyillər, amma onların davranışlarını mənimsəyərkən təqlid etməkdə qüsursuzdurlar. Uşaqlar model olaraq böyüyürlər. Yəni onlar ata və analarını özlərinə ilk həyat modeli olaraq görürlər. Doğru ana və ata modeli onların şəxsi inkişafına, düzgün formalaşmasına müsbət yöndə təsir edirsə, səhv modeldə isə bu, əksinə nəticə göstərmiş olur. Ümumiyyətlə, uşaq tərbiyə edərkən ana və atanın fikirləri üst-üstə düşməli, onlar uşağa eyni ismarıcı verə bilməlidirlər.

Kütləvi informasiya vasitələrinə, necə deyərlər, təslim etdiyimiz uşaqların sabah nə ilə qarşılaşacaqları da valideynləri düşündürməlidir. Düzdür, medianın öyrədici və əyləndirici xüsusiyyətlərinin uşaqların inkişafındakı rolunu danmaq olmaz. Fəqət, onların izləyəcəyi proqramlar valideynlər tərəfindən təyin edilməli, yönləndirilməli və nəzarət altında saxlanılmalıdır. Qadağaların çox olması və bu yöndə olan yasaqlar artıq bir təhlükə, siqnaldır. Uşağa doğrunu, yanlışı göstərərək izah etmək lazımdır. Çünki izahsız qadağalar uşaqlarda daha çox marağın oyanmasına səbəb olur. Onu da deyək ki, kiçik yaşdan etibarən günün böyük bir qismini televizor və ya kompüter qarşısında keçirən uşaqlarda əlaqə qurmaq çətinlikləri olduğu müşahidə edilmişdir. Mütləqdir ki, uşağın gündəlik proqramı olsun və bu proqramda onun boş vaxtlarını necə səmərəli dəyərləndirəcəyi yer alsın.

Uşaqla uğurlu münasibət qurmaq üçün valideynlər onun duyğu və düşüncələrini anlamağı, onun halını qavraya bilməyi, yəni özünü onun yerinə qoya bilməyi bacarmalıdırlar. Bu baxımdan onun özünə, fikirlərinə hörmət etmək, düzgün və təbii davranmaq, onu dinləmək uşağın inkişafında çox vacib amillər hesab olunur. Uşaqlar müvəffəqiyyətsizliklərini düzəltmək üçün müqayisə edilməyi xoşlamırlar. Ona dəstək olunmasını, güvəni və sevgini, onları aktiv olaraq dinləyən, dinləyərkən duyğu və düşüncələrinə dəyər verən valideynlər istəyirlər. Hər zaman valideynlərini yanlarında görmək, onlarla birlikdə olduqları zamanın özlərinə aid olmasını istəyirlər. "Sən televizora bax, mən yeməyi hazırlayım", "Sən özün oyna, mən futbola baxım" cümlələrini eşitmək istəmirlər. Bu siyahını uzatmaq da olar. Diqqət etsək görərik ki, əslində, uşaqların bizdən istədiyini, biz də, öz növbəmizdə, atamızdan, anamızdan gözləyirdik. Elə isə uşaqların bizdən çox şey istəmədiyini anlamaq lazımdır. Onlar, sadəcə, insan və şəxsiyyət üçün lazım olanları bizdən tələb edirlər. Uşaq ailədə nə görürsə onu da öyrənir. Əlbəttə, uşağı davamlı tənqid edərsənsə, o, başqalarını qınamağı öyrənər. Kinlə böyüyərsə, başqalarına qarşı kinli, davamlı olaraq təhqir edilərsə, həyatda utancaq, uşaq ailəsi tərəfindən dəstək görüb, yaxşı yetişdirilərsə, özünə inanan və səbirli, özünə və qarşısındakına hörmət görərək böyüyərsə, həyatda adil olmağı öyrənər.

Uşaq ailədə dostluq, mehribanlıq görüb və bu mühitdə tərbiyə olunubsa, özünü bu dünyada xoşbəxt sanar. Zənnimcə, bütün uşaqların da istədiyi məhz elə budur – xoşbəxt ailədə xoşbəxt yaşamaq!

*Uşaqlarımızın özünü xoşbəxt hiss etməsi üçün onlara inanmalı və etibar etməli, mükəmməlliyə meyil etməməliyik, onlara tez-tez gülümsəməliyik. Uşağa hər zaman hörmət edib, onun mənəvi ehtiyacını qarşılamalı, hər zaman müsbət yöndə düşünüb, onunla bizim aramızda olan münasibətə daim diqqət etməliyik. Sonda isə uşaqlarımızla bərabər keçirilən zamanın bizə verilən ən gözəl hədiyyə olduğunu unutmamalıyıq.*

**Firuzə HÜSEYNOVA**
***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşı***

# Mütaliə mədəniyyətinin inkişafı cəmiyyətin intellektual səviyyəsinin yüksəldilməsinə xidmət edir



***Aqillər kitabı bilik, zəka, idrak mənbəyi, kamillik vasitəsi hesab edirlər. Bu, səbəbsiz deyil. Çünki insanlar ən yüksək keyfiyyətləri, əsl təhsili yalnız mütaliə etməklə qazanırlar. Kitab oxumaq insanın ruhunu qidalandıran, daxilindəki mənəvi boşluğu dolduran çox əhəmiyyətli bir vasitədir. Böyük şəxsiyyətlərin həyatlarına nəzər yetirdikdə, onların hərtərəfli inkişafında mütaliənin əhəmiyyətli rol oynadığını aydın şəkildə görmək mümkündür. Bütün istiqamətlərdə inkişafın ancaq elmi əsaslarla mümkün olduğu müasir dövrdə hər kəsi düşündürən məsələlərdən biri də cəmiyyətimizdə mütaliə mədəniyyətinin inkişaf səviyyəsidir. Etiraf edək ki, biz hər sahədə çox böyük məsafələr qət etsək də, mütaliə mədəniyyətinin inkişafı sahəsində lazımi irəliləyişə nail ola bilməmişik. Xüsusən, gənclərdə mütaliəyə marağın aşağı düşməsi təhlükəli bir tendensiyanın xəbərçisidir. Onu da deyək ki, belə bir vəziyyət təkcə bizdə deyil, əksər dünya ölkələrində mövcuddur.***

Bu məqamda keçmiş ittifaq dönəmini xatırlatmaq istərdim. Doğrudur, həmin dönəmin neqativ halları çox idi və bütün bunları haqlı olaraq tənqid edirik. Ancaq o dövrdə bir sıra məsələlər var idi ki, bu gün də bizim üçün nümunədir. Məsələn, həmin dövrdə insanlar daha çox mütaliə etməyə çalışırdılar. O zaman kitabxanalar ən yaxşı istirahət guşələrindən biri sayılırdı. İnsanların əksəriyyəti gərgin işdən sonra asudə vaxtını kitabxanalarda və ya evdə kitab oxumaqla keçirmək istəyirdi. Halbuki senzuranın tüğyan etdiyi həmin illərdə dünya ədəbiyyatının bir sıra nümunələrini əldə etmək mümkün deyildi. Sovet ideologiyasına uyğun elmi və bədii ədəbiyyatdan başqa heç bir kitabı, elmi əsəri tapa bilmirdik. Amma bütün bu çatışmazlıqlara baxmayaraq, insanlar həvəslə oxumağa kitab axtarır, bir-birinə yeni çapdan çıxmış kitabların müjdəsini verirdilər. Hörmət və rəğbət bəslədiyimiz insanlara kitab hədiyyə etmək isə artıq ənənə halını almışdı.

Bu gün isə biz nəyin şahidi oluruq? Senzura olmasa da, dövlət tərəfindən insanların kitab oxumağı, mütaliə etməyi üçün hər cür şərait yaradılsa da, oxucunun hərtərəfli biliyə sahib olması üçün dünyanın əksər qabaqcıl elm və ədəbiyyat xadimlərinin əsərləri muxtar respublikamıza gətirilsə də, nədənsə mütaliəyə həvəs əvvəlki kimi deyil. Əvvəllər ölkədə, o cümlədən qədim diyarımızda Azərbaycan dilində kitab azlıq təşkil edirdisə, indi belə problem birmənalı şəkildə yoxdur. Muxtar respublikamızın istənilən kitabxanasında müxtəlif sahələrə aid ədəbiyyat tapmaq mümkündür. Hansı ki bir vaxtlar biz bu əsərlərə, sözün həqiqi mənasında, həsrət qalmışdıq, onların heç biri tərcümə olunmamışdı və yaxud ölkəyə girişinə qadağa qoyulmuşdu. Vaxtilə insanlar dünya ədəbiyyatı ilə yaxından tanış olmaq üçün rus dilini öyrənmək məcburiyyətində qalırdılarsa, bu gün cəmiyyətimizin xeyli hissəsi nəinki dil öyrənməyə cəhd etmir, tərcümə olunmuş əsərləri belə, oxumaq istəmir.

Bu fikirləri deyərkən muxtar respublikamızda gündəlik mətbuatı, müxtəlif elmi və bədii əsərləri oxuyan insanları da yada salmaq istərdim. Təbii ki, bu gün elə insanlarımız da var ki, özünü mütaliədən ayrı təsəvvür edə bilmir. Bu gün muxtar respublikamızda təqdirəlayiq intellektual səviyyəli zümrə formalaşıb. Amma həqiqət acı olsa da, deməliyik ki, bu insanların sayı muxtar respublikamızın gələcək inkişafının qarantına çevriləcək sosial bazanın formalaşması üçün kifayət etmir.

Belə olan halda sual yaranır: hər cür şəraitimiz olduğu halda, xüsusən bəzi gəncləri mütaliədən ayıran səbəblər nədir? İlk olaraq internetdən, mobil rabitədən düşüncəsizcə istifadə məsələsi ağla gəlir. Son zamanlar gənclərin sosial şəbəkələrə aludəçiliyi daha da artıb. Bəzi gənclərimiz sosial şəbəkələrin yaratdığı imkanlardan istifadə edərək Vətənimizi tanıtmaq, oxuduqları kitablar, keçdikləri dərslər ətrafında diskussiyalar aparmaq əvəzinə, əhəmiyyətsiz işlərlə məşğuldurlar. Hətta yol keçərkən əlindəki telefona başı qarışdığı üçün, az qala, maşın altında qalmaq təhlükəsi ilə üzləşən bir çox gənc nəinki mütaliədən, yaqin ki, ailə üzvləri ilə ünsiyyətdən də uzaqlaşır. Bu gün müsbət xüsusiyyətləri ilə yanaşı, həm də, necə deyərlər, çirklənmiş xəbər mənbəyi sayılan sosial şəbəkələr, xüsusilə gənclərimizin informasiya mənbəyinə çevrilib. Bu korkoranə bağlılıq mütaliə etmək, kitab oxumaq kimi daha dəyərli mənbələrdən məlumat almaq istəyini xeyli azaldıb. Gənclərimizin intellektual təbəqəsi isə məlumatları daha çox elektron informasiya vasitələrindən almağa üstünlük verir, hətta bədii və elmi ədəbiyyatı da kompüter vasitəsilə oxuyurlar. Təbii ki, elektron məlumat mənbələrinin çoxalmasını qınaq obyektinə çevirmək fikrindən uzağam. Çünki bu, zamanın tələbidir. Lakin bu da bir faktdır ki, məlumat mənbələrinin çoxalması insanlarımızın fəaliyyətini və düşüncə imkanlarını fərqli məcrada bölüb, beyinlərin daha çox yüklənməsinə və yorulmasına gətirib çıxarıb. Onsuz da informasiya yükünün çox olduğu bu dövrdə, üstəlik, kitabların da kompüterdən oxunması, əslində, sağlamlıq nöqteyi-nəzərdən zərərlidir. Halbuki nəfis tərtibatla çap olunmuş çox dəyərli kitablar var ki, onları oxuyanda həm ardıcıllıq qorunur, həm də bu, insana xüsusi zövq verir.

Gənclərimizi mütaliədən ayıran səbəblərdən biri də milli mentalitetimizə uyğun olmayan xarici seriallarıın və bəzi filmlərin izlənilməsidir. Bu, gənclərimizin elmə, oxumağa həvəsini azaltmaqla yanaşı, yersiz əyləncələrə, səmərəsiz həyat tərzi keçirmələrinə maraq oyadır. Gənclərimiz bir şeyi anlamağa çalışmalıdırlar ki, onların taleyini heç də həmin seriallar, filmlər müəyyənləşdirməyəcək. Onların gələcəyinə yalnız yaxşı kadr kimi yetişmək üçün mütaliə etmək faydalı ola bilər. Yəni biz özümüzün və Vətənimizin gələcəyi naminə oxumalı, öyrənməli, yenilikləri mənimsəməli, mütaliə mədəniyyətimizi inkişaf etdirməliyik. Dahilər yurdunun böyük alimlər, yazıçılar, tədqiqatçılar, siyasətçilər, sərkərdələr şəcərəsinin davamı mütləq olmalıdır. Bu isə yalnız elm və təhsillə mümkündür.

Hər bir məsələdə bizə doğru yolu göstərən ümummilli liderimiz Heydər Əliyev mütaliə mədəniyyətinin inkişafında da çox əhəmiyyətli tövsiyələr verib. Dahi şəxsiyyət deyib: "Kitabxana xalq, millət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir..." Məlum səbəblərdən kitab çapının azaldığı illərdə – 1995-ci ildə öz şəxsi kitabxanasından 300 nüsxədən çox qiymətli kitabı Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasına hədiyyə edən ulu öndərimiz həmişə gənclərə mütaliə etməyi, biliklərini artırmağı tövsiyə edib. Onun Milli Kitabxanaın fonduna bağışladığı kitab kolleksiyasının tərkibinə nəzər salarkən oradakı çoxsahəlilik və yüksək mütaliə mədəniyyəti diqqəti cəlb edir. Həmin kitabların içərisində incəsənətə, mədəniyyətə, arxitekturaya, Azərbaycan tarixinə, coğrafiyasına, ədəbiyyatşünaslığa, milli adət və ənənələrimizə, kənd təsərrüfatına, İslam dininə və müxtəlif dinlərə, dünya ölkələrinin tarixinə və ictimai həyatına, Qarabağın tarixinə və probleminə dair Azərbaycan, rus və dünya klassiklərinin və müasir yazıçıların əsərlərinə, uşaq ədəbiyyatı nümunələrinə və digər nəşrlərə rast gəlmək olur. Ulu öndərin bütün elmlərə vaqif olduğunun hər birimiz dəfələrlə şahidi olmuşuq və bir sıra xarici jurnalistlərin Ona verdikləri – "Siz hər bir sahənin mütəxəssisi ilə onların özü kimi mühakimə yürüdə bilirsiniz. Bu qabiliyyət Sizdə haradandır?" – sualına dahi rəhbər cavab verirdi ki, hər sahəyə dair çoxlu sayda kitab oxumaq və zəngin həyat təcrübəsinə malik olmaq lazımdır.

*Çox maraqlı bir fakta da toxunmaq istərdim. Tibb işçilərimiz sağlam həyat tərzi üçün haqlı olaraq idmanın əhəmiyyətini vurğulayırlar. Ancaq araşdırmalar zamanı o da məlum olub ki, təkcə idman deyil, ədəbi mütaliə də insan ömrünü uzadır. Bu bəyanatla 3 min 500 nəfərdən çox oxucu üzərində təcrübə aparmış ABŞ-ın Yale Universitetinin alimləri çıxış ediblər. Tədqiqatçılar bildiriblər ki, ömrü uzatmaq üçün gündə, heç olmasa, yarım saat sevimli ədəbiyyatın mütaliəsinə vaxt ayırmaq lazımdır. Qeyd edilir ki, kitabsevərlər mütaliə sevgisi hesabına ömürlərini ən azı iki il uzadırlar. Yəni mütaliə mədəniyyətimizin inkişaf etdirilməsi hər baxımdan bizə fayda verdiyi kimi, sağlamlığa da xeyirlidir. Belə olan halda niyə mütaliədən uzaqlaşmalıyıq?*

✍ **Rauf KƏNGƏRLİ**

## Naxçıvanda cüdo üzrə seminar və muxtar respublika birinciliyi keçirilib



*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Cüdo Federasiyası və Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının birgə təşkilatçılığı ilə məşqçilər və idmançılar üçün seminar keçirilib.*

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən seminara muxtar respublikanın perspektivli cüdoçuları və məşqçi-müəllimlər qatılıblar. Azərbaycan Cüdo Federasiyasının baş katibinin müavini Sahib İsmayılov, federasiyanın regionlarda cüdonun inkişafı sektorunun müdiri Tərlan Poladov və Veteranlar Komitəsinin üzvü Vüsal Cəfərov cüdoçuların təlim-məşq prosesi metodikasından danışıblar. Məşqçilərin yeniyetmə cüdoçularla iş prosesində sadə hərəkətlərdən başlayıb mürəkkəb hərəkətlərə necə keçmək lazım olduğu izah edilib. Məşqçiləri maraqlandıran suallar cavablandırılıb. Sonra beynəlxalq dərəcəli hakim Mətin Rəhimli bu ilin yanvar ayında Beynəlxalq Cüdo Federasiyasının Bakıda qəbul etdiyi yeni qaydaları iştirakçılara nəzəri və praktik olaraq izah edib.

Dünən isə 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş cüdo üzrə yeniyetmələr arasında muxtar respublika birinciliyi keçirilib. Birinciliyin açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası gənclər və idman nazirinin müavini Məcid Seyidov bildirib ki, muxtar respublikamızda idmana göstərilən qayğı nəticəsində idmançılarımız beynəlxalq arenalarda bayrağımızı yüksəklərdə dalğalandırırlar. Keçirilən cüdo üzrə muxtar respublika birinciliyi göstərir ki, Naxçıvanda bu sahəyə maraq çoxdur. Gənclər və idman nazirinin müavini birincilikdə mübarizə aparan idmançıları Bədən Tərbiyəsi və İdman Günü münasibətilə təbrik edib.

Azərbaycan Respublikasının ilk idman ustası Sahib İsmayılov çıxışında idmançılar üçün yaradılan şəraitin yüksək səviyyədə olduğunu bildirib. O, bu gün birincilikdə iştirak edən idmançılarımızın gələcəkdə ölkəmizi dünya arenalarında layiqincə təmsil edəcəklərinə əminliyini ifadə edib. Qeyd olunub ki, cüdonun Naxçıvanda sevilməsinin əsas səbəblərindən biri burada yaradılan şəraitdir. Bundan yararlanmaq və gələcəkdə böyük uğurlar qazanmaq üçün məşqlərə daha ciddi şəkildə yanaşmaq lazımdır. Çünki muxtar respublika idmanı hər zaman öz ənənələri ilə seçilib. Sahib İsmayılov çıxışının sonunda yarış iştirakçılarına uğurlar arzulayıb.





Müstəqil Azərbaycanın ilk olimpiya çempionu, Cüdo Federasiyasının əməkdaşı Nazim Hüseynov yarışı təşkil edənlərə öz minnətdarlığını bildirərək deyib ki, əsas məqsədimiz Azərbaycanda cüdonun inkişafına nail olmaqdır. Bunun üçün ölkənin bütün regionlarında bu idman növünün təbliği üçün işlər görülür. Bu gün Naxçıvanda cüdonun inkişafı, gənclər arasında sevilməsi və insanlarda bu növə marağın artırılması üçün hər bir şərait yaradılıb.

Azərbaycan Cüdo Federasiyasının regionlarda cüdonun inkişafı sektorunun müdiri Tərlan Poladov və hakimlər kollegiyasının üzvü, beynəlxalq dərəcəli hakim Mətin Rəhimli çıxışlarında yarışın mahiyyəti, eləcə də ölkəmizdə və muxtar respublikada idmanın inkişafı istiqamətində görülən işlərdən danışıblar.

Sonra yarışa start verilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Güləş Federasiyasının birgə təşkil etdiyi birinciliyin reqlamentinə əsasən, 4 klubdan, ümumilikdə, 91 yeniyetmə cüdoçu medallar uğrunda mübarizə aparıb. “Naxçıvan Muxtar Respublikası”, “Tələbə İdman Klubu Naxçıvan”, “Şərur” və “Culfa” klublarını təmsil edən 2001-2003-cü illər təvəllüdlü idmançılar mövcud qaydalara görə tatami üzərinə 30, 34, 38, 42, 46, 50, 55, 60, 66 və +66 kiloqram çəki dərəcələrində çıxıblar.

Yekun nəticəyə əsasən, Cəfər Məmmədli, Osman Məmmədov, Abbas Məmmədov, Fuad Əfsərli, Asif Məmmədov, Abbas Bayramzadə, Elmar İmanov, Vüqar Allahverdiyev, Elsəvər Məmmədov və Murad Əliyev müvafiq olaraq 30, 34, 38, 42, 46, 50, 55, 60, 66 və +66 kiloqram çəki dərəcələrində muxtar respublika birinciliyinin qalibi olublar.

Sonda ilk üç pillədə qərarlaşan idmançılara təşkilatçılar tərəfindən diplom, medal və cüdo geyimləri təqdim edilib.

Qeyd edək ki, cüdo idman növünün inkişafı üçün yeni idman avadanlıqları alınıb muxtar respublikaya gətirilib.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Zülfüqar Mahmudovun solo konserti olub





*Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Zülfüqar Mahmudovun solo konserti olub.*

Əvvəlcə aparıcı bildirib ki, gənc yaşlarından xanəndəliyə marağı olan həmyerlimiz Zülfüqar Mahmudov Bakı şəhərində fəaliyyət göstərən Azərbaycan Dövlət Muğam Studiyasını, eyni zamanda Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunda fəaliyyət göstərən muğam studiyasını bitirib. Təhsil illərində o, görkəmli sənətkarlarımız İslam Rzayevdən, Arif Babayevdən, Baba Mahmudoğludan, Gülxar Həsənovadan muğam sənətinin incəliklərini öyrənib. Onun xanəndə kimi yetişməsində Azərbaycan Respublikasının Əməkdar artisti Qəzənfər Abbasovun da böyük əməyi olub.

Zülfüqar Mahmudov uzun illər Naxçıvan Dövlət Filarmoniyasında musiqiçi kimi çalışıb. O, muxtar respublikanın mədəni həyatında, dövlət tədbirlərində daim yaxından iştirak edib, dəfələrlə xarici dövlətlərdə – Türkiyə, Türkmənistan, Polşa respublikalarında, eləcə də Rusiya Federasiyasında qastrol səfərlərində olub, muğam sənətimizin və milli musiqimizin təbliğinə öz töhfəsini verib.

Qeyd edilib ki, xanəndənin əməyi dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib, Zülfüqar Mahmudov 2011-ci ildə Prezident mükafatına, 2015-ci ildə isə “Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti” fəxri adına layiq görülüb.

Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının solisti Zülfüqar Mahmudov bu gün pedaqoji sahədə də çalışaraq muğam sənətimizin sirlərini böyük həvəslə gənc nəslə öyrətməkdədir.

Azərbaycan Respublikasının Əməkdar artisti Qəzənfər Abbasov çıxış edərək deyib ki, Zülfüqar Mahmudov onun ən istedadlı tələbələrindən biri olub. Xanəndənin özünəməxsus ifa tərzi həmişə tamaşaçıların alqışları ilə qarşılanıb. Qəzənfər Abbasov muxtar respublikanın sürətli inkişafından, burada aparılan abadlıq-quruculuq işlərindən, Naxçıvan şəhərinin füsunkar gözəlliyindən danışaraq qeyd edib ki, bu gün qədim diyarda mədəniyyətin, incəsənətin inkişafına böyük diqqət və qayğı göstərilir.

“Turacı” xalq rəqsindən sonra səhnəyə çıxan istedadlı xanəndə Zülfüqar Mahmudov əvvəlcə “Şur” ailəsinə daxil olan “Rahab” muğamını ifa edib.

Konsertdə “Xalq mahnı və təsniflərinin ifaçılıq müsabiqəsi – 2016”nın laureatı Yusif Hacıyev “Alma almaya bənzər” Azərbaycan xalq mahnısını, müğənni Nərmin Hüseynova bəstəkar Faiq Sücəddinovun “Oğrun yollar” nəğməsini səsləndiriblər.

Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Zülfüqar Mahmudovun ifa etdiyi “Gül açdı” Azərbaycan xalq mahnısı konsert iştirakçılarında xoş əhval-ruhiyyə yaradıb.

Konsertin sonunda xanəndənin Nərmin Hüseynova, Yusif Hacıyevlə birlikdə səsləndirdiyi “Rast” ailəsinə daxil olan mərdlik və qəhrəmanlıq ifadə edən “Heyratı” zərb muğamı alqışlarla qarşılanıb.

Qeyd edək ki, xanəndəni konsertdə tarda Azərbaycan Respublikasının Əməkdar artisti Zeynalabdin Babayev, kamançada Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Əbülfət Babayev, nağarada Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Məmmədəli Babayev, udda Cabir Vəliyev, qanunda Sevinc Babayeva, zərb alətində Mahir Rüstəmov, fortepianoda Ziya Fətullayev müşayiət ediblər.

**Əli RZAYEV**

## Beynəlxalq Vərəmlə Mübarizə Gününə həsr edilmiş maarifləndirici tədbirlərə başlanılıb

*Hər il martın 24-də dünya ictimaiyyəti Beynəlxalq Vərəmlə Mübarizə Gününü qeyd edir. Ümumdünya Səhiyyə Təşkilatının təşəbbüsü ilə 1993-cü ildən başlayaraq keçirilən Beynəlxalq Vərəmlə Mübarizə Gününün məqsədi qlobal vərəm epidemiyası haqqında məlumatlılığı artırmaq və bu xəstəliyin aradan qaldırılması istiqamətində səyləri gücləndirməkdir.*

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, Beynəlxalq Vərəmlə Mübarizə Gününə həsr edilmiş tədbirlərə start verilib. Həmin tədbirlər çərçivəsində Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanseri Kəngərli Rayon Mərkəzi Xəstəxanasında elmi-praktik seminar keçirib.

Dispanserin baş həkimi İlqar Rzayev tədbiri giriş sözü ilə açaraq mövzunun aktuallığı barədə danışıb.

Dispanserin həkimi Məmmədəli Ələkbərovun çıxışı olub.

Seminarda ilk tibbi yardım müəssisələrinin vərəm xəstəliyinin erkən aşkarlanmasında və müalicəsində rolu, dərmanlara davamlı vərəm xəstəliyi, onun yaranma səbəbləri və qarşısının alınması yolları, Naxçıvan Muxtar Respublikasına gətirilmiş yeni immunoloji müayinə üsulu olan “Diaskin test” aparatının istifadə qaydaları, nəticənin qiymətləndirilməsi, üstünlükləri haqqında məlumat verilib. Bildirilib ki, vərəm gecikmiş mərhələdə qarşısı alına bilməyən xəstəlikdir. Lakin bu xəstəliyə qarşı mübarizəni davam etdirməklə müəyyən nəticələr əldə etmək mümkündür. Bunun üçün əhalinin vərəm xəstəliyi ilə bağlı məlumatlılıq səviyyəsini artırmaq, insanlar arasında maarifləndirmə işi aparmaq vacibdir.

Tədbirdə dinləyiciləri maraqlandıran suallar cavablandırılıb və onlara vərəmin profilaktikası barədə bukletlər paylanılıb.

Sonra Xok kənd tam orta məktəbinin II-III sinif şagirdlərindən Mantu sınağının nəticəsi həm müsbət, həm də mənfi olan 60 nəfər seçmə üsulu ilə müayinə olunub. Bu uşaqlardan 14 nəfərin Ağciyər Xəstəlikləri Dispanserində kompleks müayinələrdən keçməsi tövsiyə olunub.

Uşaqlarda vərəm intoksikasiyasının aşkar edilməsi taktikası kənd həkim ambulatoriyasının həkim, orta tibb işçiləri və məktəb tibb bacısına izah edilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Azərbaycan Respublikası Təhsil Nazirliyi

### *Naxçıvan Müəllimlər İnstitutu kafedralarda boş olan vəzifələri tutmaq üçün müsabiqə elan edir*

1. Pedaqogika və psixologiya kafedrası – pedaqogika üzrə elmlər doktoru, professor –1 yer (0,5 ştat)
2. Pedaqogika və psixologiya kafedrası – pedaqogika üzrə fəlsəfə doktoru, dosent –1 yer (1 ştat)
3. Pedaqogika və psixologiya kafedrası – baş müəllim – 1 yer (1 ştat)
4. Dillər və ədəbiyyat kafedrası – filologiya üzrə elmlər doktoru, professor –1 yer (0,5 ştat)
5. Dillər və ədəbiyyat kafedrası – baş müəllim – 2 yer (2 ştat)
6. Ali riyaziyyat və informatika kafedrası – pedaqogika üzrə fəlsəfə doktoru, dosent – (0,5 ştat)
7. Ümumi fənlər kafedrası – baş müəllim – 1 yer (0,5 ştat)

Müsabiqə üçün sənədlər bu elan qəzetdə dərc edildiyi gündən bir ay müddətində müvafiq qaydada qəbul olunur.

***Ünvan: Naxçıvan şəhəri,***
***Heydər Əliyev prospekti 1***
***Naxçıvan Müəllimlər İnstitutu***
***Telefon: 545-32-02***
***Rektorluq***


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 177